# *Dövlət Xidməti:* "Ermənistan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasına mane olur"

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasını təmin etmək məqsədilə reintegration.gov.az portalı istifadəyə verilib. Portaldan Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə yanaşı, Ermənistan ərazisinə gedən erməni sakinlərin də istifadəsinə şərait yaradılıb.

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın bir sıra provayderləri dövlət qurumlarımıza məxsus olan bəzi domen adlarını Ermənistan ərazisindən insanların daxil olmasına mane olmaq üçün öz tərəfində blokda saxlayırlar.

Dövlət Xidməti tərəfindən aparılan müşahidələr nəticəsində bəlli olmuşdur ki, yeni istifadəyə verilmiş reintegration.gov.az domen adı da Ermənistan ərazisindən insanların daxil olmasına mane olmaq üçün Ermənistan Respublikasının provayderləri tərəfindən bağlanıb.

Ermənistan ərazisindən insanların portala daxil olmasını təmin etmək məqsədilə reintegration.gov.az domeninin real IP ünvanı Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən gizlədilməklə, bloklamadan yayındırılıb və Ermənistan ərazisindən insanların reintegration.gov.az saytına daxil olmasına girişlər bərpa olunub.

Son günlər dövlət qurumlarına məxsus olan saytlara, o cümlədən reintegration.gov.az portalına istifadəyə verildiyi gündən DDOS və digər kiberhücumlar aktiv şəkildə müşahidə olunur.

Görülmüş qabaqlayıcı tədbirlər nəticəsində "AzStateNet" şəbəkəsinə qoşulmuş bütün informasiya resurslarının etibarlı mühafizəsi və fasiləsiz fəaliyyəti təmin edilir.

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.6.